ELM VƏ ALİ TƏHSİL ÜZRƏ
DÖVLƏT AGENTLİYİ

# Mərakeş Krallığında 2024-2025-ci tədris ili üzrə təqaüd proqramı



**Ümumi məlumat:** Mərakeş Krallığı 2024-2025-ci tədris ili üçün Mərakeşin dövlət ali təhsil müəssisələrində təqaüdlü təhsil imkanı təqdim edir. Proqram çərçivəsində ***10*** nəfər Azərbaycan Respublikası vətəndaşının Mərakeşdə təqaüdlə təhsil alması nəzərdə tutulmuşdur. Aşağıdakı məlumatlar bu kvotaların həyata keçirilməsi üçün şərtləri və prosedurları göstərir:

**Təhsilin bakalavr pilləsi üçün tələblər:**

- Doğum şəhadətnaməsi;
- Şəxsiyyət vəsiqəsi;
- Attestat;
- Pasport;
- Məhkumluq haqqında arayış;
- Namizədin fiziki hazırlığını təsdiq edən və onun peyvənd olunduğunu və hər hansı yoluxucu və ya kəskin xəstəliyinin, xüsusən də vərəm daşıyıcısı olmadığını təsdiq edən dövlət səhiyyə orqanları tərəfindən verilmiş tibbi arayış.

**Təhsilin magistratura və doktorantura pilləsi üçün:**

- Doğum şəhadətnaməsi;
- Şəxsiyyət vəsiqəsi;
- Pasport;
- Bakalavr diplomu;
- Transkriptlər;
- Doktorantlar üçün magistr dərəcəsi almaq üçün hazırlanmış dissertasiya və doktorluq dissertasiya layihəsi;
- Məhkumluq haqqında arayış;
- Namizədin fiziki hazırlığını təsdiq edən və onun peyvənd olunduğunu və hər hansı yoluxucu və ya kəskin xəstəliyinin, xüsusən də vərəm daşıyıcısı olmadığını təsdiq edən dövlət səhiyyə orqanları tərəfindən verilmiş tibbi arayış.

Namizədlər üçün yaş həddi təhsil müəsisəsindən asılı olaraq ***19-23 yaş*** arasında dəyişir.

Beynəlxalq Əməkdaşlıq Agentliyi internet səhifəsindən ***https://shorturl.at/huIM0*** keçidi vasitəsilə yüklənə bilən kataloqda Mərakeş dövlət ali təhsil müəssisələrinin siyahısı, həmçinin onlara aid müxtəlif spesifik məlumatlar, təhsil müddəti, xüsusən qəbul şərtləri, kurslarla və s. tanış olmaq mümkündür.

**Tədris dili:**

Fransız dilinin Mərakeşdəki tədris müəssisələrinin əksəriyyətində, xüsusən də elmi, texniki və iqtisadi sektorlarda əsas işçi dili olmasını nəzərə alaraq, fransız dilini bilmədən qeyd olunan sahələrə qəbul ediləcək namizədlər 2024/2025-ci tədris ili ərzində fransız dilini təkmilləşdirmə kurslarında təhsilini davam etdirməli olacaqlar.

Dil təkmilləşdirmə proqramının sonunda müvafiq tələbələr son dil hazırlığı testlərini verəcəklər. Sözügedən testlərdən keçənlər Mərakeşə gəlməzdən əvvəl onlara bildirilmiş təlim kurslarına cəlb olunacaqlar. “Ərəb dili və ədəbiyyatı” və “İslamşünaslıq” kursları ərəb dilində tədris olunur. Bu kurslara müraciət edən namizədlər bu dili mükəmməl bilməlidirlər. “Hüquq Elmləri” kursu ərəb və ya fransız dilində tədris olunur.

**Maliyyələşmə:**

- Təhsil haqqından azad olunma
- Aylıq təqaüd: təhsil səviyyəsindən asılı olmayaraq ayda 750.00 dirhəmdir (təxminən 75 $).
- Yataqxanada yerləşmə (aylıq kirayə tələbə tərəfindən qarşılanır)

- Tibbi sığorta

Beynəlxalq Əməkdaşlıq Agentliyi, ictimai təhsil müəssisələri, Mərakeşdə qeydiyyat və qalmaq proseduru və üsulları, habelə əməkdaşlıq təqaüdlərinin ödənilməsi haqqında daha ətraflı məlumat üçün aşağıdakı internet səhifələrə müraciət etmək tövsiyə olunur:

- Beynəlxalq Əməkdaşlıq üzrə Mərakeş Agentliyi: www.amci.ma
- Milli Təhsil, Peşə Təhsili, Ali Təhsil və Elmi Araşdırmalar Nazirliyi: www.enssup.gov.ma ; www.men.gov.ma
- Peşə Təhsili və Əməyin Təşviqi Ofisi: www.ofppt.ma
- Sığorta siyasəti: www.finassure.org

**Tələb olunan sənədlər *7 may 2024-cü il* tarixinə qədər *htpinfo@eatda.edu.az* elektron poçt ünvanına "Mərakeş Təqaüd" mövzu başlığı ilə göndərilməlidir.**

**Qeyd:** Natamam sənədlər və ya son müraciət tarixindən sonra qəbul edilmiş sənədlər nəzərə alınmayacaq.